“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 noyabr 2023-cü il №90 (2802) https://mod.gov.az Qiyməti 30 qəpik

Heydər Əliyev - 100

“Dünyanın siyasi tarixində Heydər Əliyev kimi siyasətçilər olduqca nadir bir haldır”

Azərbaycan tarixində mühüm rol oynayan Ulu Öndər Heydər Əliyev dünya miqyasında tanınan və qəbul olunan böyük tarixi şəxsiyyət, uzaqgörən siyasətçi idi və dünyəvi siyasətə Azərbaycan naminə təsir göstərə bilirdi. Sovetlər dönəmində də, Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra da.



Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra ölkəmizi Ulu Öndər Heydər Əliyevə görə tanıyırdılar. Dahi rəhbərin parlaq dühası, iti zəkası sərhəd tanımadığından dünyanın böyük siyasətçiləri onun mülahizələrinə, dönməz məntiqinə hörmətlə yanaşırdılar. Bu qüdrət Azərbaycanın hüdudlarını aşırdı. Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, möhkəm iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bildi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi siyasətçi kimi, natiq kimi, dövlət başçısı kimi, insan kimi, xalqını sevən dövlət xadimi kimi, ... xarakterizə edənlərin fikirləri zamanında da tarix olub, indi də tarixdir, bundan sonra da tarix kimi qalacaq. Tanınmışların dediklərinə nəzər salarkən Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən qürurlanırıq, qəlbimizdə qürur və iftixar hissləri baş qaldırır. Ulu Öndərə verilən bu yüksək qiymətin kökündə sadəcə öz Vətəni və xalqı üçün gördüyü işlər deyil, zəmanəsinin çağırışlarına çevik reaksiyası, bəşəri ideaları, dünyada dostluğa, sülhə və tərəqqiyə verdiyi töhfələr də dayanır.

Türkiyə Respublikasının Prezidenti **Rəcəb Tayyib Ərdoğan**: "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə biz türk dünyasının birliyini və qardaşlıq münasibətlərini qoruyub möhkəmləndirməyə çalışmalıyıq".

Ulu Öndərin dəstəklədiyi Azərbaycan-Türkiyə əlaqələrinin bu gün ən yüksək səviyyədə davam etməsi bütün dünyaya bəllidir. Vətən müharibəsi bunu bir daha təsdiqlədi. Zəfərlə tamamlanan qürur dolu bu tarixin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. 2021-ci il iyunun 15-də Şuşada imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" isə iki dövlət və onların xalqları arasındakı birliyin, doğmalığın, dostluğun, qardaşlığın növbəti təzahürü oldu.

Rusiya Federasiyasının Prezidenti **Vladimir Putin**: "Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir".

Beynəlxalq münasibətlər sistemində xüsusi çəkisi olan Rusiya Federasiyası ilə müstəqil Azərbaycanın qarşılıqlı faydalı münasibətlərin bütün strateji əhəmiyyətli sahələrdə inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətində mühüm istiqamətlərdən birini təşkil edir. SSRİ-nin süqutundan sonra müstəqil dövlət olaraq Rusiya və Azərbaycanın münasibətləri yeni siyasi müstəvidə yarandı, inkişaf etdirildi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Rusiya-Azərbaycan münasibətləri daha dolğun, əhatəli, etibarlı inkişaf mərhələsinə daxil oldu.

Azərbaycan Respublikası Ali Sovetinin sədri kimi Heydər Əliyev 15 iyun 1993-cü ildə Milli Məclisin iclasındakı ilk çıxışında iki ölkə arasında münasibətlərin qurulmasının vacibliyini belə şərh etmişdi: "Rusiya çox böyük dövlətdir, bizim şimal qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha yaxşı, daha geniş, səmərəli olmalıdır". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin balanslaşdırılmış xarici siyasət doktrinasını, Rusiya ilə ikitərəfli əlaqələri də uğurla davam etdirir.

Tacikistan Respublikasının Prezidenti **Emoməli Rəhmon**: "Onun adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı Heydər Əlirza oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır".

Ulu Öndər həm də böyük bir yolun başlanğıcını qoyub. Onun Azərbaycana rəhbər seçilməsi, Azərbaycanı idarə etməsi Sovet Azərbaycanının tarixində yeni bir mərhələnin başlanğıcı idi. O vaxt Azərbaycan müttəfiq respublikalar içərisində geridə qalmış respublikalardan biri idi. Ulu Öndərin fəaliyyəti elə o dövrdən Azərbaycanın dövlət müstəqilliyinə hesablanmışdı.

1993-cü ildən formal olaraq artıq müstəqil dövlətdə yaşasaq da, Azərbaycanda vəziyyət gərgin idi. Azərbaycan dövlətinin təhlükə ilə üz-üzə olduğu bir vaxtda Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gəldi. Azərbaycan xalqının Ümummilli Lideri tükənməz gücü ilə arzuladığı müstəqil Azərbaycanı qurub-yaratmağa başladı. Bu Azərbaycanın qurtuluşu oldu.

Fransanın keçmiş prezidenti **Jak Şirak**: "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarıb. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim".

Azərbaycan xalqının Ümummilli Liderinin ən böyük arzusu Qarabağın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndər fəaliyyəti dövründə daim bu amal uğrunda çalışır, bütün gücünü səfərbər edirdi. "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır", - deyən Ulu Öndər torpaqlarımızın düşmən əsarətindən azad olunacağına əmin idi.

Amerika politoloqu **Henri Alfred Kissincer**: "Dünyanın siyasi tarixində Heydər Əliyev kimi siyasətçilər olduqca nadir bir haldır. Biz Heydər Əliyevlə eyni ildə, 1923-də anadan olmuşuq. Buna görə də, demək olar ki, eyni siyasi staja, illər boyunca hər cür sınaqdan keçmiş bir təcrübəyə malikik. Səmimi etiraf etməliyəm ki, Sovetlər Birliyi rəhbərliyində demokratik baxışlarına görə ən düzgün mövqedə duran məhz Heydər Əliyev idi. Sovet hakimiyyətinin ən strateji və geosiyasi məsələlərinin həllində Heydər Əliyev əvəzedilməz bir siyasətçi idi. Sonralar Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi də tarixi qanunauyğunluqdan irəli gəlir. Bütün maneələrə baxmayaraq, Qafqaz regionu uğrunda gedən böyük "siyasi oyunlar" mühitində o, Azərbaycanı regionun ən güclü və aparıcı bir dövlətinə çevirməyi bacardı. ABŞ ilə Azərbaycan arasında strateji əməkdaşlığın əsasını da məhz Heydər Əliyev qoymuşdur. Ümumiyyətlə, Heydər Əliyev şəxsiyyət kimi, bir fenomendir!".

Tarixi şəxsiyyətlərin tarixi xidmətləri tarixin axarını xalqının sabahlarına istiqamətləndirmə missiyası ilə ölçülür. Zamanında hadisələrə müdrik qiymət verməyi bacaran tarixi şəxsiyyətlər məqamında xalqının xilaskarı olmağı bacarır.

Ulu Öndər Heydər Əliyev bir qərinədən də çox zaman kəsiyində Azərbaycana rəhbərlik etdi, xalqımızın nurlu sabahlarını düşünərək ali amalı uğrunda mübarizə apardı. Rəhbərliyinin istər SSRİ dönəmində, istərsə də müstəqillik illərində respublikamızın iqtisadi və sosial tərəqqisinin təmin olunması, xalqın rifahının daha da yaxşılaşdırılması istiqamətində tarixi əhəmiyyətə malik olan misilsiz işlər görüldü.

Böyük Britaniyanın sabiq baş naziri **Toni Bleyer**: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu".

Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Dahi şəxsiyyət azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, dövləti bu məfkurəyə əsaslanan milli dövlət kimi formalaşdırdı, xalqın dövlətçilik hissini gücləndirdi. Azərbaycançılıq ideologiyası sadəcə öz dövlətimizin ərazisində yaşayan şəxsləri yox, bütün dünyada məskunlaşan azərbaycanlıları da əhatə etdi, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevirdi.

(Ardı 4-cü səhifədə)

Gürcüstan və Türkiyə müdafiə nazirlərinin Azərbaycana səfəri

Noyabrın 27-də Bakı şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Gürcüstanın müdafiə naziri cənab Cuanşer Burçuladze arasında ikitərəfli görüş keçirilib.

Hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə qonaqları salamlayan general-polkovnik Zakir Həsənov onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Müdafiə naziri Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin inkişafında dövlət başçılarının görüşlərinin mühüm rol oynadığını xüsusi vurğulayıb. Bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrimizin daha da güclənərək inkişaf etdiyini qeyd edib.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən cənab Cuanser Burçuladze Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası ilə əlaqədar həmkarına təbriklərini çatdırıb. Qarşılıqlı səfərlərin, bu cür görüşlərin ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsi olduğunu bildirib.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf perspektivlərindən danışılıb, həmçinin birgə təlimlərin intensivliyinin artırılması barədə ətraflı fikir mübadiləsi aparılıb. Ölkələrin beynəlxalq səviyyədə qəbul olunmuş ərazi bütövlüyünün dəstəkləndiyi diqqətə çatdırılıb.

Sonra tərəflər regionda sülhün və təhlükəsizliyin təmin olunması, hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri ətraflı müzakirə ediblər.

Görüşün sonunda Azərbaycan və Gürcüstan Müdafiə nazirlikləri arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.

* * *

Noyabrın 27-də Bakı şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstan müdafiə naziri cənab Yaşar Güler ilə görüşüb.

Hər iki qardaş ölkənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi hörmət və ehtiramla anılıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycan-Türkiyə arasında müdafiə sahəsindəki mövcud əməkdaşlığı və perspektiv imkanlarını yüksək dəyərləndirdiyini xüsusi vurğulayan müdafiə naziri əlaqələrimizin daha da genişləndirilməsi baxımından bu cür görüşlərin zəruriliyini qeyd edib.

Qardaş ölkəyə səfərindən məmnunluğunu ifadə edən cənab Yaşar Güler göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkələrimiz arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra Türkiyə arasında digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın, strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirib.

General-polkovnik Zakir Həsənov qonaqları səmimi salamlayaraq Azərbaycan ilə da uğurla inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Azərbaycan-Türkiyə əlaqələrinin Şuşa Bəyannaməsinə əsasən, müttəfiqlik münasibətlərinə söykəndiyi diqqətə çatdırılıb. Bu Bəyannamənin ikitərəfli əlaqələrin inkişafında müstəsna rolu olduğu xüsusi vurğulanıb.

Görüşdə birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi, regionda və dünyada cərəyan edən hərbi-siyasi proseslər, bölgədə sabitliyin təmin edilməsi yolları, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

* * *

Noyabrın 27-də Bakı şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler və Gürcüstanın müdafiə naziri cənab Cuanşer Burçuladze arasında üçtərəfli görüş keçirilib.

Görüşdə xalqlarımızın əsrlər boyu mehriban qonşuluq və dostluq şəraitində yaşadığı, bu gün də dövlət və hökumət başçılarımızın rəhbərliyi ilə bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi qeyd edilib. Bildirilib ki, qarşılıqlı etimada əsaslanan əməkdaşlıq xalqlarımızın rifahının təmin olunması baxımından böyük önəm kəsb edir.

Üçtərəfli görüşdə regionun təhlükəsizliyinə təhdid törədə biləcək amillərlə mübarizədə səylərin birləşdirilməsinin vacibliyi qeyd olunub. Müdafiə nazirləri üçtərəfli təlim və treninqlərin əhatə dairəsinin genişləndirilməsinin əhəmiyyətini xüsusi vurğulayıblar.

Müdafiə sahəsində üçtərəfli əməkdaşlığın genişlənməsinin sadəcə ölkələrimiz üçün deyil, eləcə də bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə də öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

Görüşdə hərbi, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər aspektlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda media nümayəndələri üçün mətbuat konfransı keçirilib və üçtərəfli görüşün yekununa dair protokol imzalanıb.

Müdafiə Nazirliyi
Mətbuat Xidməti

Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerə başsağlığı verib.

Başsağlığında deyilir: ""Pençe-Kilit" anti-terror əməliyyatı bölgəsində terror təşkilatı üzvlərinin hücumu nəticəsində şanlı türk Ordusunun hərbi qulluqçularının şəhid olması və yaralanması xəbərləri məni dərindən kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Terrora qarşı aparılan kəskin mübarizədə daima qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və Sizi var gücümüzlə dəstəkləyirik.

Şəhid olmuş qəhrəman türk əsgərlərinə rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

Müdafiə Nazirliyinin rəhbərliyi rabitə bölmələrindən birində olub

Azərbaycan Ordusunda bölmələrin hərtərəfli təminatı və qoşun xidmətinin təşkilinin daha da yaxşılaşdırılması məqsədilə həyata keçirilən kompleks tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov noyabrın 25-də Müdafiə Nazirliyinin Rabitə, İnformasiya Texnologiyaları və Kibertəhlükəsizlik Baş İdarəsinin tabeliyindəki hərbi hissələrdən birində olublar.

Müdafiə Nazirliyinin rəhbər heyəti hərbi hissənin ərazisindəki saxlanclara baxış keçirib.

Azərbaycan Ordusunda dayanıqlı rabitənin təşkili və qoşunların gizli idarə edilməsi üçün nəzərdə tutulmuş müasir tələblərə cavab verən müxtəlif rabitə vasitələri və texnika nümunələri təqdim olunub. Azərbaycan Ordusunun informasiya-kommunikasiya texnologiyaları mühitinə fasiləsiz müşahidə və nəzarəti həyata keçirmək üçün mövcud olan ən yeni texnoloji avadanlıqlar barədə məlumat verilib.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi bölmələrdə rabitə vasitələri və informasiya texnologiyalarının daha da təkmilləşdirilməsi və səmərəli tətbiqinə dair aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verib.

Şəhid Mayis Yaqubovun xatirəsinə həsr olunan anım mərasimi keçirilib

Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Mayis Yaqubovun xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

C.Naxçıvanski adına Hərbi Liseydə keçirilən tədbirdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, liseyin zabit, müəllim və kursant heyəti, şəhidin ailə üzvləri, yaxınları, döyüş yoldaşları və məktəblilər iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən, bu qələbənin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Tədbir iştirakçılarına M.Yaqubovun şərəfli həyat yolu haqqında məlumat verilib.

Şəhidin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

25 noyabr - Kəlbəcər şəhəri günü münasibətilə tədbir keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2023-cü il tarixli Sərəncamına əsasən, 25 noyabr - Kəlbəcər şəhəri günüdür.

Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisində yerləşən bölmələrindən birində bu münasibətlə tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər bildiriblər ki, Müzəffər Ali Baş Komandanın qətiyyəti və uzaqgörən siyasəti sayəsində tarixi torpaqlarımız işğaldan azad olunaraq ərazi bütövlüyümüz tam təmin edilib. Kəlbəcər şəhəri gününün ölkəmizin hər bir yerində, o cümlədən azad edilmiş ərazilərimizdə böyük qürur və iftixar hissi ilə qeyd olunduğu xüsusi vurğulanıb.

Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək məqsədilə bu kimi tədbirlərin keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Tədbirdə hərbi qulluqçular Azərbaycan Ordusunda, xüsusilə azad edilmiş ərazilərdəki bölmələrdə xidmət etməkdən qürur duyduqlarını bildiriblər.

Su-25ML tipli təyyarələrdən təlim atışları icra edilib

Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri ilə təlim atışları icra edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, heyətə təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra praktiki uçuşlar həyata keçirilib.

Müəyyən edilmiş marşrutlar üzrə döyüş manevrləri yerinə yetirildikdən sonra Su-25ML tipli təyyarələrdən 250 və 500 kiloqramlıq qanadlı ağıllı aviasiya bombaları ilə yerüstü hədəflərə uzaq məsafədən atəş açılıb.

Hərbi pilotların döyüş hazırlığının inkişaf etdirilməsi məqsədilə keçirilən təlim atışlarında təyin olunmuş hədəflər dəqiq aviasiya zərbələri ilə uzaq məsafədən məhv edilib.

"Dünyanın siyasi tarixində Heydər Əliyev kimi siyasətçilər olduqca nadir bir haldır"

(Əvvəli 1-ci səhifədə)

ABŞ-ın keçmiş prezidenti **Corc Buş**: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın XXI əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır".

Azərbaycanın müasir iqtisadi inkişaf modelinin müəllifi Ulu Öndər Heydər Əliyevin balanslaşdırılmış xarici siyasət kursunun nəticəsi olaraq ölkəmiz nüfuzlu beynəlxalq təşkilatlara üzv qəbul edildi, Azərbaycanın haqq səsi dünyada eşidilməyə başlandı. Uğurlu neft strategiyası, siyasi və iqtisadi islahatlar dünya dövlətlərinin diqqətini cəlb etdi və 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" kimi nəhəng bir saziş imzalandı. ABŞ-ın, Rusiyanın, Böyük Britaniyanın, Yaponiyanın, Norveçin, Türkiyənin və Səudiyyə Ərəbistanının neft şirkətlərinin iştirakı ilə konsorsium - Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı. "Əsrin müqaviləsi" Xəzər dənizində ilk irimiqyaslı layihənin həyata keçirilməsində beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Böyük İpək Yolunun bərpası istiqamətində konkret işlər görüldü. Dünyanın ən nüfuzlu və yüksək texnologiyalara malik neft şirkətləri ilə neft sazişinin bağlanması ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafını təmin etdi, nəticədə davamlı və dinamik inkişafı üçün müstəsna əhəmiyyətə malik oldu. Bunlar Ulu Öndərin siyasi fəaliyyətinin bəhrələridir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bütün varlığı ilə sevdiyi Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, inkişaf etmiş, sivil dünya dövlətləri sırasına çıxarmaq arzusunda olduğu yeni Azərbaycanın reallaşması naminə var gücü ilə çalışırdı. Dünyanın böyük dövlətlərinin başçıları ilə saysız-hesabsız görüşlər keçirir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırdı.

Böyük tarixi şəxsiyyətlər haqqında deyilən fikirlər tarixdir. Bu tarix deyir ki, Heydər Əliyev dahi idi, dünya siyasətinin nəhənglərindən biri idi, onun siyasi dühası həm də bəşəriliyə söykənirdi. Bu bəşərilik həm də azərbaycançılığı əhatələyirdi...

Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"

Yaşatmağı bacarmaq qüdrəti

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət sayəsində Azərbaycanda hərbi təbabətin beynəlxalq standartlar səviyyəsində təşkilinin də əsası qoyuldu. Bu gün səhiyyədə, eləcə də hərbi səhiyyədə də Ulu Öndərin siyasi kursunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

"İnsanların sağlamlığı dövlət üçün prioritetdir", - deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ordu quruculuğunun daha dinamik səviyyədə inkişafını təmin etməklə bir sırada hərbi qulluqçulara olan qayğısı da artdı və artmaqdadır. Qəbul etdiyi mühüm qərarlar şəxsi heyətin peşəkarlıq səviyyəsini artırır, onların sosial müdafiəsi, yaşayış və xidməti, iş şəraiti yaxşılaşdırılır. Bu gün Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında hərbi təbabətin səviyyəsi, hərbi qulluqçuların sağlamlığına dövlətin həssas münasibəti dünyəvi diqqətə layiqdir.

Bu günlərdə dünyada çox az sayda mərkəzdə və çox az sayda cərrah tərəfindən tətbiq olunan "Ozaki əməliyyatı" adlandırılan cərrahi müdaxilə Baş Klinik Hospitalın Ürək-damar cərrahiyyəsi bölməsində uğurla həyata keçirilib. Ürək-damar şöbəsinin həkimləri hərbi səhiyyə tarixində növbəti uğura nail olublar. Həkimlərimiz tibb xidməti kapitanları Cavid İbrahimov və Elgin Hacızadə bölmənin tibbi personalı ilə ilk dəfə olaraq xəstənin özünün ürək pərdəsindən yeni ürək qapağı düzəldərək funksiyası pozulmuş ürək qapağını əvəzləyiblər. Belə bir çətin əməliyyatı həyata keçirən həkimlərimizi daha yaxından tanımaq, əməliyyat haqqında məlumat almaq üçün Ürək-damar cərrahiyyəsi bölməsində olduq.

Ürək-damar cərrahiyyəsi bölməsinin rəisi, ürək-damar cərrahı, tibb xidməti kapitanı Cavid İbrahimov 1990-cı ildə Rusiya Federasiyasının Başqırdıstan Muxtar Respublikasında anadan olub. Anasının arzu və istəyi ilə bu xeyirxah peşəni seçib. 2013-cü ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bitirib. 2014-cü ildə rezidenturaya qəbul olunub. Böyük Zəfərin başlanğıcı kimi tariximizə yazılan Aprel döyüşlərində iştirak edib. Türkiyə Respublikasının Gülhanə Tədris və Araşdırma (Gülhane Eğitim və Araştırma) xəstəxanasında kurs keçib. 2021-ci ildən Ürək-damar cərrahiyyəsinin bölmə rəisidir. Vətən müharibəsində bir çox istiqamətlərdə döyüş bölgəsinə ezam olunub.

Şöbənin ordinatoru ürək-damar cərrahı, uzman, tibb xidməti kapitanı Elgin Hacızadə 1990-cı ildə Şəki şəhərində dünyaya göz açıb. Babasının həkim olması onun bu xeyirxah peşəni seçməsinə təsirsiz ötüşməyib. Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bitirib. 2014-cü ildən xidmətdədir. Türkiyə Respublikasının Gülhanə Tədris və Araşdırma (Gülhane Eğitim və Araştırma) xəstəxanasında beş il ürək-damar cərrahı uzmanlıq təhsili alıb. Vətən müharibəsində xaricdə təhsil alan bütün həkimlər kimi o da təhsilini dayandıraraq Azərbaycana qayıdıb. Vətən müharibəsində

Hadruta, Horadizə və Cəbrayıla, bu ilin sentyabrında keçirilən əməliyyat tədbirləri zamanı isə "N" hərbi hospitalına ezam olunub.

Hər ikisini bu sənətə vətənsevərlikləri gətirib. Uşaqlıq illəri müharibə və atəşkəsə təsadüf edən bu tibb xidməti kapitanları torpaqlarımızın işğaldan azad edilməsini, ərazi bütövlüyümüzün tam bərpa olunmasını hər şeydən çox istəyiblər. Bunun üçün də çox nəcib və məsuliyyətli peşəni hərbi mundirlə qoşa yaşatmağı özlərinə mənəvi borc biliblər. Vətən müharibəsində hər ikisi ağır döyüşlərdən sonra mürəkkəb cərrahi əməliyyatlar həyata keçirib, yaralılara yaşam verib, qısa müddətdə müalicə olunaraq xidmətə qayıtmaları üçün əllərindən gələni əsirgəməyiblər. Bu işdə özlərinə ən böyük mükafatı xəstələrinin gözlərində sözlə ifadə olunması mümkün olmayan minnətdarlığı bilirlər.

Həkimlər bildirdilər ki, ürək qapaqlarının anatomik və funksional ciddi pozulmalarında cərrahi müalicə tətbiq olunur. Klassik cərrahiyyədə bu qapaqlar mexaniki və bioloji protez qapaqlarla dəyişdirilir, ancaq həm mexaniki, həm də bioloji protez qapaqların özünəməxsus problemləri davam edir. Daha təkmilləşmiş metod kimi qapaqların təmiri əməliyyatları geniş yayılsa da, bu, bütün xəstələrə tətbiq edilə bilmir. Son illərdə yapon alimi professor Şiqeyuki Ozaki tərəfindən təklif edilən metod aortal qapağın cərrahi müalicəsində inqilabi dəyişikliyə səbəb olub. "Ozaki əməliyyatı" adlanan bu yanaşmada funksiyası pozulmuş aortal qapaq xəstənin öz ürəyinin pərdəsindən hazırlanmış qapaq tayları ilə əvəz olunur. Ürəyin pərdəsi (autoloq perikard) xüsusi metodla hazırlanır. Əməliyyat nəticəsində xəstə ömrü boyu qandurulaşdırıcı dərman istifadə etmir. Qapaq uyğunlaşmasına ehtiyac olmur, xəstə təbii aort qapağa bənzər yeni aort qapağa malik olur.

Tibb xidməti kapitanı Cavid İbrahimov qeyd etdi ki, uzun müddətli dayanıqlılıq üçün bu hazırlama mərhələsi xüsusi əhəmiyyət kəsb edir. Bu texnikada aorta qapağı yarpaqcıqları xəstənin perikardından, yəni, öz ürəyinin membranından hazırlanır. Əməliyyatdan sonrakı exokardioqrafik yoxlamalarda bu qapağı normal qapaqdan ayırd etmək mümkün deyil - əməliyyat zamanı heç bir süni materialdan istifadə edilmir.

Aortal qapaq rekonstruksiya olunur. Ona görə də əməliyyatdan sonrakı exokardioqrafik yoxlamalarda bu qapağı normal qapaqdan ayırd etmək çox çətindir.

- Ümumiyyətlə, bu əməliyyat ürək qapaqlarını təmir etmək əvəzinə, onları yenidən formalaşdırmaq məqsədi daşıyır, - tibb xidməti kapitanı Elgin Hacızadə vurğuladı. - Xəstələrin daha uzun və sağlam ömür sürməsinə kömək edir. Ürək qapaqlarının bu metodla dəyişdirilməsi həm yuxarı, həm də aşağı yaş qrupu xəstələrdə həyata keçirilməsi mümkündür. Aort qapaq xəstəliklərinin cərrahi müalicəsində bu metodun müsbət nəticəsi ondan ibarətdir ki, xəstə qapaq uyğunsuzluğu, bioloji qapaqların vaxtından əvvəl aşınması səbəbindən təkrarlanan cərrahi prosedurlar, mexaniki qapaqlar səbəbindən anemiya, ömür boyu qan durulaşdırıcı istifadəsi, infeksiya riski (endokardit) kimi vacib və arzuolunmaz hallarla qarşılaşmırlar. Bütün bu problemlər nəzərə alınaraq, aort qapaq cərrahiyyəsində "Ozaki əməliyyatı" müqayisəolunmazdır.

- Ozakinin öz nəticələrinə baxsaq, 10 il ərzində təkrar müdaxiləsiz yaşam göstəricisi 95,8 faizdir, - bölmə rəisi dedi. - Bu metodun istifadəsi yaşlı xəstələrdə ilk seçim olmalıdır. Uşaqlarda istifadəsi daha maraqlıdır. Protez qapaqlardan istifadə böyüdükcə uşaqlarda kifayət qədər ciddi problemlər yaradır. Bu problemləri "Ozaki əməliyyatı" ilə önləmək mümkündür. Bizim həyata keçirdiyimiz əməliyyat 20 nəfərlik heyətlə 6 saat davam etdi. Əməliyyatda Anesteziologreanimatoloq tibb xidməti mayoru Vüqar İbrahimovun, Anesteziologreanimatoloq tibb xidməti kapitanı Elşən Rüstəmovun, anesteziya texniklərinin, cərrahi texniklərin və perfuzionistlərimizin əməyi danılmazdır. Bu uğuru komanda olaraq qazanmışıq.

Uzman ürək-damar cərrahı Elgin Hacızadə, eyni zamanda, qandurulducu dərman istifadə edə bilməyən və ya etmək istəməyən xəstələrdə, həmçinin əməliyyatdan sonra hamilə olmaq istəyən gənc qadın xəstələrdə də istifadəsinin məqsədəuyğunluğundan danışdı. Bildirdi ki, əməliyyat etdiyimiz xəstələrdən birinin degenere olmuş aort qapağının ikitaylı olması bu üsulun texniki cəhətdən icrasını daha da çətinləşdirdi. Xəstəmizin ikitaylı aort qapağı özəl ölçmə texnikaları ilə ölçülərək öz perikard toxumasından hazırlanmış perikard ilə yenidən üçtaylı vəziyyətə gətirildi. Hal-hazırda hər iki xəstənin vəziyyəti qənaətbəxşdir.

Həkimlik daim öyrənməyi, təkmilləşməyi, müasir üsullar axtarmağı tələb edən bir peşədir. Həkim nə vaxtsa öyrəndiyi biliklərlə kifayətlənməməli, daim öz üzərində işləməlidir. Səhiyyənin inkişafı həkimin də inkişafı deməkdir. Vətəni qorumaq da müqəddəs və şərəflidir, onun müdafiəçisinin sağlamlığı keşiyində dayanmaq da.

Tofiq Əhmədov üç gündür əməliyyat olunub, palatada bizi ayaqüstə, gülərüzlə qarşıladı. Ona "Aort qapaq protezləşdirilməsi suprakoronar graft" əməliyyatı icra edilib. "Ozaki əməliyyatı" olunmuş Zeynət Şərifova ilə də görüşdük. Onun da vəziyyəti yaxşı idi. Hər iki xəstə yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə dövlət başçısına, Müdafiə Nazirliyinin və Baş Klinik Hospitalın rəhbərliyinə, tibb xidməti kapitanları Cavid İbrahimova və Elgin Hacızadəyə, Ürək-damar cərrahiyyəsi bölməsinin kollektivinə dərin minnətdarlıqlarını bildirdilər.

Ömürlərə ömür calamaq, ümidsizə ümid yeri olmaq, xəstələrə şəfa vermək xeyirxah olduğu qədər də gərəkli və müqəddəs işdir. Bu nəcib peşələrinə görə tibb işçiləri hər cür hörmət və ehtirama layiqdirlər.

Kapitan
Günay TAĞIYEVA
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR
"Azərbaycan Ordusu"

Təlim

Mərmilər qələbəyə yol açır

Yaydan o qədər də fərqlənməyən payızdı. Ağacların budaqlarına sarılan, saralmaqda olan yarpaqları titrədən yel əsir. Hərbçilərin əhatəsində həmişə gözəl duyğular yaşandığından bayaqdan bəri bunları hiss etməmişik. Göy üzündə vurnuxan bir əlçim bulud sezilməsi çətin olmayan narahatlıq yaradır: Yağarsa, dərstəlimin keçirilməsi çətinləşəcək. Öyrənə-öyrənə püxtələşən, püxtələşə-püxtələşə öyrənən əsgərlərin baxışlarını bürüyən narahatlıq "Bu günün işini sabaha qoyma" kəlamına yozulası narahatlıqdı.

İkinci Qarabağ müharibəsindən əvvəl bu hərbi hissədə artilleriyaçıların çöl təlimində də gözlənilmədən göy üzünü bulud bürümüşdü. Seyrək çisək başlamışdı. Batareya komandiri dərs-təlimin davam etdirilməsinə göstəriş vermişdi, "Yağışsız buluddu..." - demişdi. Dərs-təlim davam etdirilmişdi. Komandir əsgərlərin yerinə yetirdiyi hərəkətlərin qətiliyindən də, ardıcıllığından da razı qalmışdı. Onda top komandiri "Dərs-təlimdə şəxsi heyətin özünəinamı daha da möhkəmləndi. Yağış yağsaydı, bu gözəl inam bir gün, bəlkə də bir neçə gün gec yaşanılardı...", - demişdi. Əsgərlər məmnunluqla komandirlərinə, sonra göy üzünə baxmışdılar. Təbiətin şıltaqlığı hərbçiləri əsla qorxutmur. Onlar hər şəraitdə qarşıya qoyulan tapşırığı icra etməkdə əzmlidirlər.

Yağışsız bulud axıb uzaqlaşır. "Topun atışa hazırlanması" mövzusunda dərs-təlim başlayır. Top komandiri mövzunu nəzəri baxımdan şərh edir. Bu, müəyyən mənada, öyrədilmişlərin təkrarıdı. Əsgərlərin baxışlarından dikələn inamı komandir də görür, bir qədər aralıdan biz də görürük. Bu inam yaddaşın inamıdı, marağın, maraqdan rişələnmiş sevginin inamıdı. Bu sevgi hərbi xidmətə sevgidi, bu neçə ayda formalaşmış artilleriya ixtisasına sevgidi. Komandirin də, digər hərbi qulluqçuların da Vətən müharibəsinin döyüş təəssüratları hərbi xidmətə başlayan əsgərlərin düşüncələrində artilleriyaya maraq, maraq biçimində sevgi yaradıb. Onlar döyüşlərdə artilleriyanın gücünün nə olduğunu biliblər. İndi özləri həmin gücün real döyüşlərdə necə gerçəkləşdirilməsini öyrənirlər, bildiklərini təkmilləşdirirlər...

Təmrinlərin ayrılıqda da, ardıcıllıqla da düzgün icrası dərsin mənimsənilməsi deməkdir. Bəzən komandirin müdaxiləsinə ehtiyac qalmır, əsgərlərdən biri digərinə təmrini daha asanlıqla, daha düzgün yerinə yetirməsində kömək edir, əsgər sonra onları təkrarlayır. Bu, mənimsəmə deməkdir...

Zəfərdən sonra işğaldan azad edilmiş rayonlarımızdan birində artilleriyaçılarla söhbətləşirdik. Əsgər Kərim Bədəlov söhbətimizi maraqlı bir mətləblə davam etdirmişdi:

- Hərbi xidmətə artilleriyaçı kimi başlamışdıq. Öyrənirdik. Dərs-təlimlərdə öyrəndiklərimizi təkrarlaya-təkrarlaya gerçək döyüşlərə tələsirdik. Biz də Ali Baş Komandanın döyüş əmrini arzulayırdıq. Sentyabrın 27-də döyüş əmri verildi. İlk

atışımızı heç birimiz yaddan çıxartmayacağıq. Ona xırda düzəliş edilmişdi. Növbəti mərmilər düşmənin mövqeyini dağıtmışdı. Bu mərminin dəqiqliyi ilə Xocavəndə qədər döyüşdük. Mövqe qələbələri qazandıqca müharibədən əvvəl keçdiyimiz dərs-təlimləri, bir də döyüşlərdə atdığımız ilk mərmini xatırlayırdıq. Füzuli istiqamətində düşmənin komanda məntəqəsini dağıdanda Qələbəyə nə qədər yaxın olduğumuzu hiss etdik. Ordumuz tarixi Zəfər qazandı. Bu Zəfər bütün qoşun növlərinin yüksək döyüş hazırlığının Zəfəri oldu...

Həmin gün əsgər Kərim Bədəlovun dedikləri düşüncələrimizin tülünə dönmüşdü, hamımız daha böyük istəklərlə daha uzaqlara boylanmışdıq...

Dərs-təlimdə fasilə vaxtı əsgərlərə həmin söhbəti xatırladıram. Yaranmış səssizliyin gerçək yozumu könül xoşluğuna dönür: Qalib əsgərlərimizin xidmət yolunu böyük sədaqətlə davam etdirəcəyik. Bu yozumu da Hərbi Andın məntiqi davamı bilirəm. Top komandiri Əli İsgəndərov bu xatırlatmanı Vətən müharibəsində iştirak etmiş bütün artilleriyaçıların ümumi duyğusu adlandırır:

- Müharibə başlayanda Kərimin dediyi duyğuları biz də yaşamışıq. İlk döyüş əmrini yerinə yetirəndə biz də ilk dərstəlimi xatırlamışdıq. İlk dərs-təlimdə sonrakı dərs-təlimlərə can atırdıq. Komandirimiz bizi səbirlə öyrədirdi, öyrəndiklərimizi mükəmməl öyrəndiyimizə əmin olduqdan sonra növbəti dərs-təlimə keçirdik. Bu proses hər birimizin peşəkarlığını təmin etmişdi. Hamımız ilk döyüş əmrini Kərimin dediyi duyğuların doğmalığı ilə yaşamışıq. Kərim düz deyir, nə atdığımız ilk mərmi, nə də son mərmi unudulmayacaq.

Çavuş Əli İsgəndərov Vətən müharibəsi iştirakçısıdı, Füzuli, Xocavənd uğrunda döyüşlərdə iştirak edib, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilib...

Əsgər Nicat Sadıqlı top komandirinin fikirlərini hiss edilməsi çətin olmayan həsədlə davam etdirir:

- Müharibə başlayanda biz məktəbli idik. Döyüşlərə getmək istəsək də, aparmamışdılar. Aparsaydılar, deyilən duyğuları biz də yaşayardıq. Gedə bilməsək də, o duyğular bizə yad deyil. Müharibədə tarixi Zəfər qazananların döyüşləri də, duyğuları da bizə doğmadır. Biz o duyğuları da Vətənin özü qədər müqəddəs bilirik. Belə də xidmət edirik.

Top komandiri topa işarə ilə qürurla bildirir ki, bu top da müharibə iştirakçısıdı. O da 44 gün döyüşüb, o da Füzulidən Şuşayacan döyüş yolu keçib.

Əsgərlərin əli ehmallıqla topun üstündə gəzişir. Bu incə təması həm hərbi xidmətə, həm də müharibə iştirakçısı olmuş topa azalmayacaq-sozalmayacaq sevgi bilirəm. Əsgər Şəmsi Hüseynov yoldaşlarına baxır, elə bil deyəcəklərinə söykək umur:

- Biz hərbi xidmətdə artilleriya ixtisasını başqa top üzərində də öyrənə bilərdik. Ancaq bu top üzərində öyrənməyimiz bizim məsuliyyətimizi daha da artırır. Nə öyrəniriksə, döyüşlərdə bu topla düşmənin döyüş mövqelərini, komanda məntəqələrini dağıtmış, canlı qüvvəsini məhv etmiş döyüşçülərimizin səsini eşidirik: Mükəmməl öyrənin! Nəzəri biliklərimizi dərs-təlimlərlə təkmilləşdiririk. Bu gün "Topun atışa hazırlanması" mövzusunu bir daha təkrarladıq. Heyət üzvlərinin hər biri vəzifə borcunu mükəmməl yerinə yetirməyi bacarır...

Əsgərin dediklərini bütün

artilleriyaçı əsgərlərin adından deyilən kəlmələr kimi İkinci Qarabağ müharibəsində iştirak etmiş artilleriyaçı döyüşçülərin döyüş yoluna, bu anlamda Vətən müharibəsində qazanılmış Zəfərə sədaqət bilirik. Yaşadılmalı sədaqətdi.

Top komandiri əlini topun gövdəsinə qoyub qürurla əsgərlərə baxır:

- Bu topu artilleriyanın snayperi də adlandırırlar. Siz bununla da qürurlanmalısınız.

Əsgərlərin baxışlarında uçunan niyyətin işığı 2021-ci ilin yayında hərbi hissədə söhbətləşdiyim əsgərlərin baxışlarında gördüyüm işığın eynidi. Onda söhbətdə Vətən müharibəsində iştirak etmiş əsgərlər də vardı, yeniləri də. Gənc əsgərlər döyüşlərdə iştirak edənlərə qədərsiz ehtiramlarla baxırdı. Bugünkü dərs-təlimdə top komandirinin son fikirlərini Vətənə sevginin bir çaları bilirik. Vətən müharibəsinin döyüşlərindən çıxmış topun sərrastlığına bunca sevgi də Vətənə görədi. Belə bir qurğunun istismar xüsusiyyətlərini öyrənənlər "artilleriyanın snayperi" adı ilə indi də qürurlanırlar, tərxis edildikdən sonra da qürurlanacaqlar...

Dərs-təlim başlama ərəfəsində göy üzündə vurnuxan bir topa bulud dağılıb. Bayaqdan bəri göy üzünün göm-göy olduğuna diqqət yetirən olmayıb. Gözucu baxıram və bu görüntünü rəmz bilirəm. Əsgər düşüncələrinin, əsgərin Vətən müharibəsinin döyüşçülərinə sədaqətinin, döyüşlərdən keçib, indi sırada dayanan topa sevgisinin rəmzi. Əsgərin düşüncələri durudu, Vətən müharibəsinin iştirakçılarına sədaqəti durudu, istismar xüsusiyyətlərini mükəmməl öyrəndikləri artilleriya qurğusuna sevgiləri durudu, ... Hamısını bu duruluq ümumiləşdirir...

Vətən müharibəsindən üç il keçir. Hərbi xidmətdə olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, gizirlər, zabitlər əsgərlərə o döyüşlərdə artilleriyaçıların döyüşlərindən də danışıblar. Əsgər İzzət Hacıyev komandirlərindən eşitdiyi bir döyüşü xatırlayır:

- Düşmənin müdafiə səddini dağıtmaq əmri verilibmiş. Düşmənin mövqelərinə onlarla mərmi atılsa da, düşmən mövqelərdən çıxmırmış. Onda komanda məntəqəsindən düşmənin hərəkətdə olmayan döyüş maşınlarından birinin koordinatı verilib. İki-üç dəqiqədən sonra iki mərmi düşmənin iki tankının külünü göyə sovurub.

- Bəlkə həmin top da artilleriya snayperi olub? - əsgər Sənan Babayev deyir.

- Bəlkə də, - top komandiri gülümsünür. Bu səmimi təbəssümü görüncə əsgərlərin ikisinin də əli topa toxunur. Bu təmasın ehtiram təması olduğunu hiss etmək çətin deyil...

Polkovnik-leytenant Azər Abdullayev deyir ki, bu hərbi hissədə İkinci Qarabağ müharibəsindən əvvəl təlimlər gerçək döyüş şəraitinə uyğun səviyyədə keçirilirdi. Bu, həm əsgərlərin döyüş hazırlığını yüksəldirdi, həm də mənəvi-psixoloji hazırlığını. Dərs-təlimlər bu tezis əsasında aparılırdı. Əsgərlər artilleriya qurğularının istismar xüsusiyyətlərini öyrənə-öyrənə rəmzi döyüş təcrübəsi qazanırdılar. Bu proses İkinci Qarabağ müharibəsində döyüş qüdrəti oldu. Neçə-neçə mövqe qələbəsi bilavasitə artilleriyaçılarımızın dəqiq atışları nəticəsində qazanıldı. Tarixi Zəfərdən sonra təlimlər də, dərs-təlimlər də nisbi mahiyyət dəyişikliyi ilə yenə müntəzəm keçirilir. Vaxtilə döyüşə hazırladığımız əsgərlər Vətən müharibəsində tarixi Zəfər qazandılar, onları yeni əsgərlər əvəzləyirdi, əvəzləyənləri də yeniləri əvəzləyir. Bu günün əsgərləri silahlanmaya daxil edilən yeni silahların da istismar xüsusiyyətlərini öyrənirlər. Bu baxımdan təlimlər də, dərs-təlimlər də İkinci Qarabağ müharibəsindən əvvəlki vaxtlarla müqayisədə nisbətən fərqlidir. Həm də indi təlimlər də, dərs-təlimlər də Vətən müharibəsinin döyüşlərinə istinadən aparılır.

- Dərs-təlimi həm də pedaqoji proses adlandıra bilərikmi? Dərs prosesində olduğu kimi, mövzu bir daha izah edilir, sualı olan soruşur, sorğusuna cavab alır. Sonra bütün mərhələlər ardıcıllıqla yerinə yetirilir, - soruşuram.

- Pedaqoji prosesə uyğun prosesdir. Burada da öyrədilir, təkmilləşdirilir. Təkmilləşmə bilavasitə təcrübə ilə tamamlanır. Ona görə bunu pedaqoji-təcrübi proses adlandırmaq daha dəqiq olardı, - baş leytenant Emil Bayramov belə deyir.

Dərs-təlimə hazırlıq mərhələsində əsgər Əziz Ağazadənin hərəkətlərini izləmişdim: qətiyyətli, inamlı. Bunları Asiman Quliyevdə də, Süleyman Nəcəflidə də, Şəmsi Hüseynovda da müşahidə etmişdim. Əmin olmuşdum ki, top heyəti bu mövzunu da, bu mövzunun timsalında digər mövzuları da mükəmməl mənimsəyiblər...

- İkinci Qarabağ müharibəsində düşmənin sədlərinin dağıdılmasında da, piyadalarımızın hücumu üçün döyüş şəraiti yaradılmasında da artilleriyaçılarımız böyük qətiyyətlə döyüşdülər. Onlar atdığı hər mərmini qələbə gətirəcək mərmi bilib atırdılar. Vətən müharibəsində artilleriyaçılarımız Çanaqqala döyüşündə Seyid Əli Onbaşı inamı, Seyid Əli Onbaşı qətiyyəti, Seyid Əli Onbaşı sevgisi ilə döyüşürdülər, - deyirəm. Bu müqayisə əsgərlərə də xoş gəlir, zabitlərə də. Baxışlarda bir şükranlıq sezilir...

Vətən müharibəsindən sonra ordu quruculuğunun yeni mərhələsi başladı. Bu mərhələ həm də elmi əsaslarla aparılır. Artilleriya təmayüllü hərbi hissələrdə də təlimlər, dərs-təlimlər, ümumən döyüş hazırlığı bu tezis əsasında həyata keçirilir.

Bu payız günündə artilleriyaçıların dərs-təlimini bir gerçəkliyin ifadəsi kimi izlədik: Döyüş hazırlığı yüksək səviyyədədir, təkmilləşir, dönməzləşir...

Rəşid HÜSEYNOV
"Azərbaycan Ordusu"
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR

Öz işinin peşəkarı

Təbliğat-təşviqat işinin düzgün təşkili mahiyyət etibarilə hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığında xüsusi rol oynayır. Bu səbəbdən ordumuzda ideoloji otaqlar planlı tərtib olunur. Azərbaycan Respublikasının tarixi, Dövlət rəmzləri, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Ali Baş Komandan İlham Əliyev tərəfindən ordu quruculuğu istiqamətində həyata keçirilən fəaliyyət, müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordunun şəxsi heyətinə tapşırıqları və s. öz əksini tapır. Bundan başqa, ideoloji otaqlarda əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün lazımi şərait yaradılır.

Döyüş şəraiti və təlimlər zamanı da şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə qorunub saxlanılması əsas amillərdən biridir. İdeoloji iş və mənəvi-psixoloji təminat bölməsinin zabitləri həm qrup şəklində şəxsi heyətlə, həm də fərdi olaraq hərbi qulluqçularla söhbətlər aparır, bölmələrin mənəvi-psixoloji vəziyyətinin yaxşılaşdırılması uğrunda çalışırlar. Bu işdə onlara səyyar-ideoloji məntəqələr və orada yaradılan şərait yardımçı olur. İdeoloji otaqlarla yanaşı, səyyar-ideoloji məntəqələrin və guşələrin tələblərə uyğun tərtibatının da vacibliyi göz önündədir.

Bu istiqamətdə aparılan işlərin ildən-ilə yaxşılaşdırılması, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıq səviyyələrinin yüksəldilməsi məqsədilə ordumuzda müxtəlif müsabiqələr də keçirilir.

Azərbaycan Ordusunun 2023-cü tədris ilinin hazırlıq planına əsasən, "Ən yaxşı təşviqat işinin təşkili" adı altında keçirilən müsabiqədə iştirakçılar ideoloji otaqların, səyyar-ideoloji məntəqə və ideoloji guşələrin, divar mətbuatının təşkili uğrunda yarışlarda bacarıqlarını sınayıblar.

"N" hərbi hissəsində Hərbi Hava Qüvvələri üzrə keçirilmiş müsabiqədə birinci, ümumordu müsabiqəsinin nəticələrinə əsasən ikinci yerə layiq görülən kapitan Elcan İsayev ilə tanış oldum.

Öyrəndim ki, Elcan kiçik yaşlarından hərb sənətinə sevgisini qəlbində böyüdüb. Qarşısına zabit olmaq məqsədi qoyub. Buraxılış imtahanlarında uğurlu nəticə göstərərək Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin (indiki Heydər Əliyev adına Hərbi İnstitut) məzunu oldu, ordu sıralarında "leytenant" hərbi rütbəsində xidmətini davam etdirməyə başladı.

Elcan artıq kapitan rütbəsinə qədər yüksəlib. Hərbi həyatında, ömür müddətində qazandıqları onun hafizəsində çoxlu sayda xoş xatirələr qoyub: kursant illəri, Aprel döyüşlərində qələbə, 44 günlük haqq savaşımızın sonlandığı tarixi Zəfər. Yaşananların hər biri gələcək nəsillərə dastan və örnəkdir. Elcan özü də bu yoldan keçdiyi üçün böyük fəxr hissi keçirir. Aprel döyüşləri və Vətən müharibəsinin iştirakçısı olduğunu qürurla bildirir. Əzəli torpaqlarımızın azadlığı uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, zabit İsayev Elcan Cavid oğlu "Ağdamın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Gənc zabit bildirdi ki, "Ən yaxşı təşviqat işinin təşkili" və bunun kimi digər müsabiqələrin keçirilməsi ordu sıralarında sağlam rəqabət mühiti yaratmaqla yanaşı, onların biliklərinin təkmilləşdirilməsinə də dəstək olur. "Belə tədbirlər qoşun növləri, birlik və birləşmələrdə şəxsi heyətin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə yönəlir. Təşviqat işinin təşkilindən danışsaq, bu istiqamətdə görülən işlərin təkmilləşdirilməsi olduqca önəmlidir. Əldə edilən nailiyyətlər və döyüş təcrübəsinə əsaslanaraq hərbi qulluqçularımıza sağlam ruh və qələbə əzmi təbliğ etməliyik. Müsabiqələrin məqsədi isə bölmələr və ayrıca götürülmüş fərdlər arasında yarış ruhunun və rəqabət mühitinin gücləndirilməsidir", - deyən kapitan Elcan İsayev sözünü bitirdi.

Baş leytenant
İbrahim MƏMMƏDBƏYOV
"Azərbaycan Ordusu"

Medallı igidlərimiz

"Qələbəni döyüşə-döyüşə qazandıq..."

Şəhid Rəhilə Orucova adına 109 saylı məktəbdə təhsil alırdı. Müəllimlərinə demişdi ki, Xəzər xalq kimidi, sevdiklərini salamlayır, könlünə yatmayanları görüncə qəzəblənir, coşur. Xəzər insanlara sevgi də öyrədir, qəzəb də. Orxan Şirinov bu ruhda böyümüşdü.

Müharibənin nə olduğunu yaxşı bilirdi. Atası Birinci Qarabağ müharibəsində 1994-cü ilin 28 yanvarında Sırxavənddə şəhid olmuşdu...

Müharibə illərinin uşaqları fərqli böyüyürlər.

Torpağı qoruyanlara həsəd apara-apara böyüyənlər mətin formalaşır, qətiyyətli olur, dərdi də tanıyır, dərdi dərdə salanları da. Həmyaşıdları kimi Orxan da müəllimlərindən soruşardı: Müharibə nə vaxt qurtaracaq? Bu sorğuda heysiyyət vardı, Vətənə sevgi vardı, Vətəni qoruyanların sırasında olmaq niyyəti vardı.

Şəhidliyin nə olduğunu bilirdi, atasızlıq ağrılarını dərk edirdi. Düşüncələrində bir istək çırpınırdı: hərbçi olacam! Ona bu istəyin ötəri olduğunu bildirənlərə qəhərlə, "Atam torpaqlarımızın müdafiəsində şəhid olub. Onu mən əvəzləməliyəm..." - deyirdi. Qətiyyətlə deyirdi...

Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil oldu. Niyyətinin gerçəkləşməsi üçün hərbi xidmətin çətinliklərinə qatlaşdı, oxuya-oxuya öyrəndi, öyrənə-öyrənə oxudu. Aradan illər keçəndən sonra mayor hərbi rütbəsində deyir ki, kursant olaraq ilk dərs gününü, ilk sıra düzülüşünü, ilk təlimləri, kursant kimi ilk imtahanı, ali hərbi məktəbdə ilk mühazirələri, ilk çöl çıxışlarını, ... hərbi rütbə aldığı günü, qoşunlarda xidmətə başladığım günü heç zaman unutmaram. Bunlar mənim hərbçi tərcümeyi-halımdı.

Hərbi liseyi bitirəndən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (İndiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil oldu. Mahiyyəti uyğun olsa da, yeni mühit hamısından intizama da, təhsilə də daha məsuliyyətli münasibət tələb edirdi. İndi zabit olmaq niyyətinə daha yaxın idilər. Nəzəri biliklərini çöl çıxışları ilə təkmilləşdirirdilər...

Hərbi And içdilər. Onlara "leytenant" hərbi rütbəsi verilmişdi, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinə göndərilmişdilər. Bir ildən sonra qoşunlarda xidmətə başlayacaqdılar.

Leytenant Orxan Şirinov taqım komandiri idi. "Şəxsi heyətlə tanışlığı ordu həyatı ilə tanışlıq kimi yaşadım. Əsgərlərin sayı qədər xarakter əhatəsindəydik. Hamısını bir amal birləşdirirdi: məsuliyyətlə, Hərbi Anda sədaqətlə xidmət etməli!", - mayor Orxan Şirinov zabit kimi hərbi xidmətin ilk günlərini belə xatırladı...

Yeniyetməliyində tay-tuşlarına, təhsil alanda kursant yoldaşlarına dediklərini hərbi hissədə zabit yoldaşlarına da deyirdi: Sırxavəndin azad edilməsi uğrunda gedəcək döyüşlərdə mən də iştirak etmək niyyətindəyəm; şəhid atasının ruhunun çağırışını duyurdu...

İkinci Qarabağ müharibəsi başlayanda mayor Orxan Şirinovun xidmət etdiyi hərbi hissə də döyüşlərə cəlb olundu...

Alxanlı kəndinin yaxınlığın-

daydılar.

...Sentyabrın 28-i idi. Dan yeri sökülmüşdü.

"Vətən müharibəsində ilk atəşimiz Alxanlıda oldu. Bu atəş həm də körpə Zəhranın ömrünü tükəndirənlərə atılan atəş idi. Bu atəş döyüşçülərin döyüş əzminin, qələbə ruhunun atəşi idi. Bu döyüş mövqe qələbəsi qazanılmasında əhəmiyyətli oldu..."

Mayor Orxan Şirinov Vətən müharibəsinin ilk gününü belə xatırlayır. Bu xatırlamada da Zəfərin işığı görünürdü...

Sonra Füzulinin digər ərazilərində döyüşüblər. Müharibədə əsgərlərin - döyüşçülərin qətiyyətinə dönməz qələbə ruhu deyən mayor Orxan Şirinov dedi ki, Xocavənd uğrunda gedən döyüşlərdə qələbə ərəfəsində olduğumuzu hiss edirdik. "Komandir, hər döyüş bizi qələbəyə yaxınlaşdırır..." - əsgərlərimiz belə deyirdilər. Onda atamı, atamın son döyüşünü - Sırxavəndi düşünürdüm. Vətən müharibəsi Zəfərlə başa çatdı...

Mayor Orxan Şirinov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Xidmətdə fərqlənməyə görə", "Vətən uğrunda" medalları ilə təltif olunub...

Baş leytenant
Mahmud MÖHBALIYEV
"Azərbaycan Ordusu"

Otuz il əvvəl, otuz il sonra

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli kapitulyasiya aktına uyğun olaraq Ermənistan silahlı dəstələrini Qarabağdan çıxarmalı idi. Lakin vaxt ötdükcə düşmən daha da möhkəmlənməyə başladı, imzaladığı təslim aktına əməl etməkdən imtina edərək öz köhnə ampluasında qaldı. Nəticədə Qarabağda qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin qalıqlarına və qeyri-qanuni Ermənistan silahlı dəstələrinə qarşı sentyabrın 19-da Azərbaycan Ordusu əməliyyatlara başladı və bir sutka tamam olmamış düşmən ağ bayraq qaldıraraq irəli sürülən tələblərlə razı olduqlarını dedi.

Ermənilərin beynəlxalq aləmi çaşdıran bəyanat və çıxışları azərbaycanlılara çox tanışdı. Bu dəfə daşnakların bu cür avantür hiylələri işə keçmədi. Çünki artıq Azərbaycan o Azərbaycan deyildi. Dövlətimizin başçısı xarici əlaqələri elə qurmuşdu ki, ermənilər cəbhədə olduğu kimi, diplomatiyada da məğlub oldular. 44 günlük Vətən müharibəsindən sonra zənn etmişdik ki, daha düşmən əlinə silah alıb döyüşməz. Lakin belə olmadı...

Düşmən Xankəndinə, Ağdərəyə, Əsgərana, Xocavəndə, Xocalıya bizim daxil olmağımıza nəinki imkan vermirdi, hətta bu əraziləri "müstəqil Artsax respublikası" kimi tanıtmaq üçün dəridən, qabıqdan çıxırdı. Ancaq əbəs yerə. Çünki Azərbaycan onlara torpaq məsələsində bir qarış da olsa güzəşt etməyəcəkdi. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar cəmi bir gün çəkdi. Sakit dayanmayan, atılıb-düşən, köhnə ampluada olan düşmənin son cəhdləri də boşa çıxdı. Ağ bayraq qaldırıb təslim olmaqdan başqa çıxış yolu qalmadı.

Mən də Azərbaycan Ordusunun ilk əsgərlərindən biri olmuşdum. Bir neçə aylıq təlimdən sonra xidmət etdiyim tabor Tərtər rayonuna gəldi. Onda Ağdərənin azad edilməsi uğrunda gərgin döyüşlər gedirdi. İndiki Şıxarx kəndindən döyüşə başladıq və bir neçə gündən sonra - iyulun 4-də Tərtər-Ağdərə yolu ilə şəhərə daxil olduq. Mərkəzi küçə ilə şəhərin əsas binasına çatdıq və burada Ağdərə şəhərini ermənilərdən tam azad edərək bayrağımızı həmin binanın üstündə dalğalandırdıq. Lakin siyasi hakimiyyətdəki boşluqlar, səriştəsiz idarəçilik nəticəsində bu sevinci sona qədər yaşaya bilmədik. Təəssüf ki, 1993-cü ilin iyunun sonunda Ağdərə yenidən düşmən əlinə keçdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin gərgin əməyi nəticəsində ordumuz daha da möhkəmləndi. Xalq-dövlət-ordu birliyi son anda erməni işğalı altında olan torpaqlarımızı azad etdi. Bütün dünya ölkələrinin tanıdığı Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

Otuz il əvvəl azad edilən Ağdərə bir il azadlıqda qaldı. Otuz ildən sonra erməni vəhşiliyindən Ağdərə əbədi olaraq azadlığa qovuşdu. Otuz il əvvəlki sevinci otuz ildən sonra yenidən yaşadıq.

Bəxtiyar ƏLİYEV
"Azərbaycan Ordusu"

Ermənilərin "qələbə" simvolu Hərbi Qənimətlər Parkında

1988-ci ildə Ermənistanda baş qaldıran mitinqlərdən sonra orada yaşayan azərbaycanlıların deportasiyası başlandı. Xankəndidə ermənilər Azərbaycan Respublikasının rəhbərliyinə tabe olmaqdan imtina etdilər. Sonra hadisələr daha da kəskin xarakter aldı. Ermənilər havadarlarından silah və döyüş texnikaları almağa başladılar. Onlar Qarabağda və Ermənistanda yerləşən Sovet hərbi hissələrindən aldıqları silahlarla azərbaycanlıların yaşadıqları kəndlərə, qəsəbə və şəhərlərə basqınlar edir, dinc insanları qətlə yetirərək evləri yandırırdılar. Daşnaklar zirehli döyüş texnikalarının köməyi ilə Daşaltı, Qaradağlı, Xocalı faciələrini törətməkdən çəkinmədilər. Dinc, əliyalın azərbaycanlılara qarşı hərbi əməliyyatlarda istifadə etdikləri 442 nömrəli tankı xüsusi olaraq əzizləyirdilər. Şuşaya hücumdan əvvəl düşmən həmin tanka güvənirdi və hər dəfə ona böyük sevgiylə baxırdılar. Azərbaycan xalqının qəhrəman oğlu Albert Aqarunov açdığı ilk atəşlə həmin tankı məhv etdisə də, Birinci Qarabağ müharibəsindən sonra ermənilər yanmış

442 nömrəli tankı təmir edərək "Qələbə simvolu" olaraq Şuşa-Xankəndi yolunun üzərindəki təpədə yerləşdirmişdilər.

Albertin dəqiq atəşi

Ermənilər Qarabağı Ermənistana birləşdirmək üçün Azərbaycana qarşı elan olunmamış müharibəyə başlamışdılar. Düşmən təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycanın təkcə Ermənistan və Qarabağ ətrafında yerləşən rayonlardan deyil, ölkəmizin hər yerindən doğma Qarabağımızı qorumaq məqsədilə könüllülər cəbhəyə yola düşürdülər. Onlardan biri də milliyyətcə yəhudi olan Bakı şəhərində doğulub boya-başa çatan tankçı Albert Aqarunov idi. Albert doğma Vətəni Azərbaycanı qorumaq məqsədilə yadelli düşmənə qarşı döyüşmək üçün Qarabağın tacı sayılan Şuşaya gəlmişdi. 1992-ci ildə Şuşanın müdafiəsində vuruşan Albert tankla düşmən hücumlarının qarşısını alırdı. Böyük şücaət və qəhrəmanlıqlar göstərirdi. Nə qədər acı olsa da, qeyd etməliyəm ki, o zaman ermənilər həm təbliğat, həm də hərbi güc baxımından bizdən üstün idilər. Azərbaycanın haqq səsini eşidən olmadığı üçün cəbhədə də məğlubiyyət qaçılmaz olmuşdu. 1992-ci il mayın 8-də ermənilərin Şuşaya sonuncu hücumu oldu. Bütün döyüşlərdə öndə gedən düşmənin 442 nömrəli tank yağılara Şuşanı da işğal etməyə ruh verdi. Şuşa şəhərinə daxil olmaq üçün düşmən tankdan bir neçə dəfə atəş açmışdı. Ermənilər onun qarşısına çıxacaq cəsur tankçımızdan xəbərsiz idilər. Şuşa şəhərinə daxil olmağa az qalmış ermənilərin "Qələbə simvolu"nu - 442 nömrəli tankını məğrur döyüşçümüz Albert Aqarunov elə yarı yoldaca vuraraq sıradan çıxartdı. Buna baxmayaraq, həmin gün düşmən Şuşanı işğal etdi.

Bir tankın iki məkanı

19 sentyabr 2023-cü ildə Azərbaycan Qarabağda qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin birləşmələrinin qalıqlarına və qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı əməliyyatlar həyata keçirdi. Uğurlu əməliyyat nəticəsində düşmən ağ bayraq qaldırdı. Bir neçə gün sonra ermənilərin "qələbə rəmzi" olan 442 nömrəli tank ərazidən götürülərək İkinci Qarabağ müharibəsindən sonra yaradılan Hərbi Qənimətlər Parkına gətirildi.

İndi Hərbi Qənimətlər Parkına ziyarətə gələnlər ermənilərin "Qələbə simvolu"na nifrətlə baxırlar. Hazırda bu tank ermənilərin "qələbəsinin" yox, məğlubiyyətinin simvoluna çevrilib.

Bəxtiyar ƏLİYEV
"Azərbaycan Ordusu"

"Hər bir şəraitlə təmin olunmuşuq"

Müzəffər Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində rəşadətli Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yüksəldilməsi məqsədilə daim profilaktik işlər aparılır. Bu məqsədlə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən konkret tədbirlər həyata keçirilir. Görülən işlərin nəticəsidir ki, şəxsi heyətin bütün sosial-məişət şəraiti yüksək səviyyədədir. İşğaldan azad olunmuş ərazilərdə dislokasiya edilən hərbi hissələrdə müasir standartlara cavab verən əsgər yataqxanaları, ideoloji, xidməti, tədris və istirahət otaqları, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana və digər obyektlər inşa edilir. Məğrur Vətən müdafiəçilərinin zəruri ehtiyaclarının ödənilməsi, istirahətləri və asudə vaxtlarının səmərəli keçməsi üçün hərtərəfli şərait yaradılır.

"N" hərbi hissəsində olduğunuz zaman qeyd etdiklərimizin şahidi olduq. Əsgər yataqxanasındakı səliqə-sahman göz oxşayırdı. Əsgərlər Fərid İmambaxışov və Səbuhi Qaragözov yataqxananın səliqə-sahmanı ilə məşğul olurdular. Burada ilk diqqətimizi çəkən şəhid əsgər İnqilab Qasımzadənin yatdığı çarpayının daim nəzarətdə saxlanılması oldu. Silahdaşları bildirdilər ki, İnqilab Azərbaycan Respublikasının konstitusiya qu-

ruluşunun bərpa edilməsi məqsədilə başlanılan əməliyyat tədbirlərində şəhidlik zirvəsinə yüksəlib. Həmçinin qeyd etdilər ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə mənfur düşmənə göz dağı verən, tarixi torpaqlarımızı işğalçılardan azad edən və adlarını qəhrəmanlıq salnaməsinə yazmaqla Vətənin bölünməzliyinə imza atan şəhidlərimizin adını uca tutmaq və əbədiləşdirmək hər birimizin borcumuz olmaqla yanaşı, ümdə vəzifəmizdir. Çünki onların qəhrəmanlığı və qorxmazlığı sayəsində ərazi bütövlüyümüz bərpa edildi. Regionda haqq-ədalət bərqərar olundu.

Sumqayıt şəhərindən ordu sıralarına çağırılan əsgər Fərid İmambaxışov xidməti dövründə yaşadığı xoş xatirələrindən, ilk dəfə formanı geyinib sıraya durmağından, burada qazandığı dostlarından, bütün sosial-məişət şəraitlərinin yüksək səviyyədə olmasından, təcrübəli komandirlərinin bilikləri sayəsində peşəkar əsgər kimi formalaşmalarından söhbət etdi. Dedi ki, yuxarı komandanlığın göstərişlərinə əsasən, hər cür şəraitlə təmin olunmuşuq. "İsti yataqxanamızın, qida və geyim təminatımızın qaydasında olması çətinlikləri bizdən uzaq tutur. Hər həftə yataq dəstlərimiz yığılaraq yuyulur, təmizlənir, daha sonra isə ütülənərək yeniləri ilə əvəz edilir. Bu qayğının qarşısında üzərimizə yalnız bir vəzifə düşür - torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaq. Hər birimiz bu vəzifənin öhdəsindən layiqincə gələcəyimizə əminik. Çünki bu torpaqlar uğrunda neçə qəhrəman oğullarımız xain erməni gülləsinə tuş gələrək, şəhidlik zirvəsinə yüksəlib. Onların canı bahasına azad edərək, bizlərə əmanət etdiyi tarixi torpaqlarımızı göz bəbəyi kimi qorumaq hər birimizin müqəddəs borcudur".

Qəbələ rayonundan hərbi xidmətə çağırılan Əsgər Səbuhi Qaragözov da əsgər yoldaşının sözlərinə qoşuldu. Dedi ki, Müdafiə Nazirliyinin rəhbərliyinin diqqəti nəticəsində bizlər üçün hər cür şərait yaradılıb. "Burada yaradılan yüksək məişət şəraiti isə hər birimizdə ruh yüksəkliyi yaradır. Belə qayğının qarşılığında isə hər birimizin üzərinə düşən vəzifə birdir - ana Vətən torpaqlarının müdafiəsində mətin dayanmaq. Bu vəzifənin öhdəsindən isə asanlıqla gələcəyik. Çünki keçirilən dərslər və təlimlər sayəsində hərbin sirlərinə dərindən yiyələnib, peşəkar döyüşçü kimi formalaşmışıq".

Beləliklə, hərbi hissədə yaradılan şəraitlə tanış olduqda bir daha əmin olduq ki, Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən ordumuzun maddi-texniki təminatı, həmçinin şəxsi heyətin sosial-məişət şəraiti olduqca yüksək səviyyədədir. Bunların nəticəsidir ki, Azərbaycan əsgəri qarşıya qoyulan istənilən tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi bütün döyüş əməliyyatları isə dediklərimizin əyani sübutudur.

Kapitan
Orxan HÜSEYNLİ
"Azərbaycan Ordusu"

Xəbərlər: hadisələr, faktlar

İsrail-Fələstin məsələsi ilə bağlı yaradılan təmas qrupu İspaniya XİN-nin rəhbəri ilə görüşüb

İsrail-Fələstin məsələsi ilə bağlı yaradılan təmas qrupu Barselonada İspaniyanın xarici işlər naziri Xose Manuel Albares ilə görüşüb. Təmas qrupuna Türkiyənin xarici işlər naziri Hakan Fidan da daxildir.

Bu barədə Türkiyə XİN açıqlama yayıb. Məlumata əsasən, görüş zamanı İsrail-Fələstin cəbhəsində baş verən son hadisələr və problemin həlli istiqamətində atılacaq addımlar nəzərdən keçirilib.

Qeyd edək ki, Hakan Fidan Aralıq dənizi İttifaqının 8-ci Regional Forumunda iştirak etmək üçün Barselonada səfərdədir. Forumda Yaxın Şərqdəki son vəziyyət müzakirə olunur.

Noyabrın 11-də yaradılan təmas qrupuna Türkiyə, Səudiyyə Ərəbistanı, Misir, İndoneziya, Qətər, İordaniya, Fələstin nümayəndələri ilə yanaşı, Ərəb Dövlətləri Liqasının Baş katibi Əhməd Əbul Qeyt də daxildir.

İsrail HƏMAS-la atəşkəsin uzadılması şərtlərini açıqlayıb

HƏMAS hərəkatı hər gün 10 girovu azad edərsə, İsrail atəşkəs rejimini uzatmağa hazırdır.

"The Times of Israel" qəzeti xəbər verir ki, indiyədək 117 fələstinli məhbus yəhudi dövlətinin həbsxanalarından azad edilib. Daha 40 fələstinli məhbusun noyabrın 27-də azadlığa buraxılması gözlənilir. HƏMAS hərəkatı ilə İsrail arasında əldə edilən razılaşma çərçivəsində azad olunması planlaşdırılan fələstinlilərin siyahısında daha 150 nəfərin adı var.

Noyabrın 27-də azad ediləcək girovların və fələstinli məhbusların siyahısı ilə bağlı tərəflər arasında fikir ayrılıqları yaranıb. Hazırda atəşkəsə və məhbus mübadiləsinə vasitəçilik edən Qətər problemi həll etməyə çalışır.

Xatırladaq ki, Qətərin vasitəçiliyi ilə əldə edilən dördgünlük atəşkəs çərçivəsində İsrail və HƏMAS arasında əsir mübadiləsi aparılır. Dünən tərəflər arasında üçüncü məhbus mübadiləsi baş tutub.

Cənubi Koreya ilk dəfə NATO-nun kiber təlimlərində iştirak edəcək

Koreya Respublikası ilk dəfə NATO-nun noyabrın 27-dən dekabrın 1-dək Estoniyada keçiriləcək kiber koalisiya təlimində iştirak edəcək.

Bu barədə Koreya Respublikasının Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Kiber koalisiya 2008-ci ildən bəri hər il keçirilir və "kiber domendəki ən böyük müdafiə təlimi" hesab olunur. Bu il NATO üzvləri və alyans tərəfdaşları da daxil olmaqla, 35 ölkə bu təlimə qatılacaq. Keçən il Koreya Respublikası kiber koalisiyada müşahidəçi qismində iştirak etmişdir.

Cənubi Koreyanın kiber əməliyyatlar komandanlığı bildirib ki, təlimlər NATO ilə bu sahədə əməkdaşlığı gücləndirəcək və "kiberməkanda müharibə" aparmaq üçün potensialı artırmağa imkan verəcək.

AZƏRTAC-ın materialları əsasında

Şəhid Fərrux Hüseynovun xatirəsinə həsr olunan anım mərasimi keçirildi

Kürdəmir şəhərində torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən Vətən müharibəsi döyüşlərində şəhidlik zirvəsinə ucalan baş leytenant Hüseynov Fərrux Baxış oğlunun xatirəsinə həsr edilən anım mərasimi keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu, Kürdəmir rayon ictimaiyyətinin və qeyri-hökumət təşkilatlarının nümayəndələri, Vətən müharibəsi iştirakçıları, şəhidin ailə üzvləri, döyüş və sinif yoldaşları, eləcə də respublikamızın digər bölgələrindən olan şəhid valideynləri iştirak etdilər.

Anım mərasimində əvvəlcə Kürdəmir rayon Şəhidlər xiyabanında baş leytenant F.Hüseynovun məzarı ziyarət edildi, önünə əklil və gül dəstələri düzüldü.

Sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə çıxış edənlər şəhid zabitin ömür yolundan, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi qələbədən, eləcə də digər uğurlu döyüş əməliyyatlarında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən danışdılar.

Təhsil aldığı məktəbin müəllimləri, sinif yoldaşları şəhid F.Hüseynovla bağlı məktəb xatirələrindən söz açdılar. Daha sonra şəhidin hərbi xidmət illərindən, keçdiyi döyüş yolundan danışıldı.

Şəhidin valideynləri, döyüşçü dostları da onunla bağlı xatirələrini bölüşdülər. Bildirildi ki, F.Hüseynov 29 aprel 1995-ci ildə Kürdəmir rayonunun Şilyan kəndində anadan olub. O, 2001-2012-ci illərdə Kürdəmir şəhər Rüstəm Quliyev adına 5 nömrəli tam orta məktəbdə təhsil alıb. Vətənpərvər ruhda böyüyən Fərruxun el-oba sevgisi və hərbi formaya məhəbbəti gənc yaşlarından onu hərbçi olmağa, Azərbaycan Ordusu sıralarında xidmət etməyə ruhlandırıb.

2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub və 2016-cı ildə həmin məktəbi bitirərək, tank bölməsində xidmətə başlayıb.

Sentyabrın 27-də Vətən müharibəsinin başladığı ilk gündən tank bölməsi komandiri kimi Füzuli, Cəbrayıl, Zəngilan Qubadlı və Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Füzuli istiqamətində gedən döyüşlərdə iki dəfə yaralanmasına baxmayaraq şəhid zabit döyüşlərdə iştirakını davam etdirib. F.Hüseynovun komandiri olduğu heyət Xocavənd istiqamətində gedən ağır döyüşlərdə düşmənin xeyli canlı qüvvə və texnikasının məhv edilməsində fərqlənib.

2020-ci il noyabrın 9-da Xocavənd istiqamətində gedən ağır döyüşlərdə şəhid olub və noyabrın 10-da Kürdəmir rayonunun Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, Fərrux Hüseynov Vətən müharibəsi döyüşlərində göstərdiyi şücaətlərə görə, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Anım mərasimində çıxış edən şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

İsa İSMAYILOV

Yeni nəşrlər

"44 günlük Vətən müharibəsi" kitabı çapdan çıxıb

"44 günlük Vətən müharibəsi" kitabı çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, 744 səhifəlik kitab Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunda hazırlanıb və işıq üzü görüb.

Geniş oxucu üçün nəzərdə tutulan əsərin müəllifi həmin İnstitutun professoru, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, ehtiyatda olan birinci dərəcəli kapitan, tarix elmləri doktoru, professor Nurulla Əliyevdir.

Nəşrdə Ermənistan ilə Azərbaycan arasında mövcud olmuş münaqişənin gərginləşməsi prosesindən tarixi xronoloji ardıcıllıqla bəhs edilib.

Kitabda açıq mətbuatda olan geniş informasiya mənbələrinə, hərbi ekspertlər, hərbi və beynəlxalq humanitar hüquq sahəsində ixtisaslaşan alimlər, mütəxəssislərin təhlilləri əsasında Ermənistan ilə Azərbaycan arasında İkinci Qarabağ müharibəsinin məzmununu müəyyənləşdirən əsas hərbi və siyasi komponentlərə qiymət verilir.

Nəşrdə Birinci və İkinci Qarabağ müharibələrinin əsas səbəbləri, onların bütün Cənubi Qafqazın taleyi üçün geosiyasi nəticələri müəyyənləşdirilməyə və göstərilməyə çalışılıb. Həmçinin beynəlxalq birliyin və münaqişəyə cəlb olunan tərəflərin fəaliyyətinin qərəzsiz təhlilinə böyük diqqət yetirilib. Eləcə də həmin müharibələrdə xronoloji ardıcıllıqla hərbi-siyasi hadisələrin və döyüş əməliyyatlarının xüsusiyyətləri əks olunub. Bununla yanaşı, Vətən müharibəsində Azərbaycan xalqının qələbəsini təmin edən Azərbaycan Silahlı Qüvvələrinin hərbi-strateji məharəti və tətbiq edilən taktikanın mərhələli inkişafı və sabit təkamülü göstərilib.

Ümumilikdə Ermənistan ilə Azərbaycan arasında mövcud olmuş münaqişə cəbhəsində hərbi əməliyyatlar 44 gün (2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək) davam edib və 2020-ci il noyabrın 10-da Ermənistanın faktiki olaraq hərbi kapitulyasiya aktı imzalanması ilə yekunlaşıb. Bu il sentyabrın 19-20-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən əməliyyat tədbirləri Ermənistanın hərbi-siyasi məğlubiyyəti ilə nəticələnib. Beynəlxalq birlik Qarabağın Azərbaycanın ayrılmaz hissəsi, bizim qədim tarixi torpağımız olduğunu qəbul etdi. Bütün Azərbaycan xalqı Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək və şanlı Qələbəyə doğru birlikdə irəliləyərək, işğaldan azad edilmiş torpaqlarda Dövlət Bayrağının qaldırılmasına, Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olub.

Bununla əlaqədar münaqişənin səbəb və nəticələri ilə əlaqədar bütün problemlər kompleksinin hərtərəfli və dərindən tədqiqi, onun tənzimlənməsinin siyasi və hərbi güc metodlarının geosiyasi əhəmiyyətinin üzə çıxarılması bu kitab üzərində iş zamanı müəllif üçün müəyyənedici amillər olub.

Kitab Milli Müdafiə Universitetinin adyunktları, müəllimləri və dinləyiciləri, hərbi nəzəriyyəçi və praktiklər, beynəlxalq münasibətlər, humanitar və hərbi hüquq sahəsində ixtisaslaşan mütəxəssislər üçün nəzərdə tutulub. Bütün bunlarla yanaşı, əsər Azərbaycanın hərb tarixi, Ermənistan ilə Azərbaycan arasında mövcud olmuş münaqişənin səbəbləri, gedişi və konkret məzmunu ilə maraqlanan geniş oxucu kütləsi üçün də maraqlı mənbədir.

İdman

UEFA Azərbaycan klublarına əlavə vəsait köçürüb

UEFA 2022-2023-cü illər mövsümündə avrokuboklarda (Çempionlar Liqası, Avropa Liqası, Avropa Konfrans Liqası) çıxış edən Azərbaycan klublarına əlavə ödəniş edib.

Avropa futbol qurumu tərəfindən ayrılan vəsait AFFA-nın vasitəçiliyi ilə müvafiq klubların hesabına köçürülüb.

Ötən mövsüm Konfrans Liqasında mübarizə aparan komandalardan "Neftçi"yə 106 943 avro, "Qəbələ" və "Zirə" klublarının hərəsinə isə 64 166 avro ödənilib.

Milli Məclisin futbol komandası beynəlxalq turnirdə bürünc medal qazanıb

Noyabrın 23-27-də Antalyada Türkiyə Respublikasının 100-cü ildönümünə həsr olunmuş beynəlxalq parlamentlərarası futbol turniri keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, turnirdə Türkiyə, Azərbaycan, Rumıniya, Bolqarıstan, Bosniya və Herseqovina, Macarıstan və Gürcüstan parlamentlərinin komandaları iştirak ediblər.

B qrupunda mübarizə aparan Milli Məclisin komandası ümumilikdə 4 oyunda 3 qələbə qazanaraq yarışı bürünc medallarla başa vurub. Komandamızın yeganə məğlubiyyəti yarışı çempion kimi tamamlayan Rumıniya kollektivinə qarşı olub.

Azərbaycan karateçisi dünya çempionatında tarixi uğura imza atıb

Azərbaycan Karate Federasiyasının idmançısı Elşanə Rüstəmzadə kyokuşin-kan növündə ilkə imza atıb.

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, o, böyüklər arasında dünya çempionatında medal qazanan ilk azərbaycanlı qadın karateçi kimi adını tarixə yazdırıb.

Qazaxıstanda keçirilmiş yarışda mübarizə aparan idmançı 50 kiloqram çəki dərəcəsində bürünc mükafata yiyələnib.

Xatırladaq ki, buna qədər yeniyetmələr arasında Nəzrin Hacıyeva mundialın qızıl medalına layiq görülüb. Milli komandanın digər üzvü, Dünya Qran-Prisinin gümüş medalçısı olmuş Cəmil Kazımlı isə 65 kiloqramdan yuxarı çəki dərəcəsində 3-cü yeri tutub.

Dünya çempionu olan Azərbaycan şahmatçısı inüfuzlu yarışa dəvət alıb

İtaliyanın Montesilvano şəhərində 18 yaşadək şahmatçılar arasında keçirilmiş dünya çempionatında qızıl medal qazanan Azərbaycan təmsilçisi Ayan Allahverdiyeva rapid və blits üzrə mundialda iştirak edəcək.

İti zəka sahibi son yarışda uğurlu nəticə əldə etdiyi üçün Özbəkistanın Səmərqənd şəhərində təşkil olunacaq dünya çempionatına dəvət alıb.

İlin son yarışına qatılacaq digər Azərbaycan şahmatçılarının adı növbəti həftə açıqlanacaq.

AZƏRTAC-ın materialları əsasında

Baş redaktorun müavini
mayor
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Hüsniyyə NƏSİROVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 809
Nüsxə 4752